İSSN-0207-4710
2011-ci il

# GÖYƏRÇİN

12





Hekayə



Şeir



Nağıl

KİTABXANASI
İNV. №



RAFİQ YUSİFOĞLU



## 6 DEKABR - RABİTƏ İŞÇİLƏRİ GÜNÜ

### RABİTƏÇİ NƏĞMƏSİ

Heç bir şey qarşımızda
Dönə bilməz əngələ.
Dünyanın harasına
İstəyirsən zəng elə.

Uzaqdakı dost- tanış
Düşəndə yadınıza.
Poçt, teleqraf, internet
Yetişər dadınıza…

Biz həmişə hamının
Köməyinə gəlirik.
İşimizlə uzağı
Yaxın edə bilərik..

Əlaqə yaradırıq,
Ölkələr arasında
Şəhərlər arasında,
Bölgələr arasında

Kimə nə göndərsələr,
Ünvana yetirərik.
Məktublar, bağlamalar
Aparıb-gətirərik.

İnternetə qoşulsan,
Vaxtın şən ötə bilər.
Məktubun bircə anda
Ünvana gedə bilər..

Dayanaraq üz-üzə,
Ürəyindən keçəni
Danışa da bilərsən,
Soruşa da bilərsən.

Şərəfli peşəmiz var
Peşələr sırasında.
Əlaqə yaradırıq
İnsanlar arasında…

## 10 DEKABR-İNSAN HÜQUQLARI GÜNÜ

### İNSAN

İnsan ata-anadı,
İnsan qardaş-bacıdı.
İnsan dünyanın nuru,
Təbiətin tacıdı.

Əsl insan görəndə,
Çəkinir oğru, quldur,
Hüququnu bilməyən
İnsan kölədir, quldur.

Onun sevmək, sevilmək,
Seçmək azadlığı var.
İstədiyi şəhərə
Köçmək azadlığı var.

İnsanın qüdrətinə
Baş əyir uca dağlar.
İnsanın insan kimi
Yaşamağa haqqı var.

İnsan şəhərlər salır,
İnsan yaradır, qurur.
Öz işindən zövq alır,
Köksünə sığmır qürur..

İnsan xoşbəxt yaşasın,
Sevinsin, gülsün gərək.
İnsan öz hüququnu,
Haqqını bilsin gərək…

Rəssam
Fidan

